*UNİVERSİTƏ QURUMLARI*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2000-ci il 2 sentyabr tarixli 156 nömrəli qərarından çıxarış*

## XI. KİTABXANA FONDLARINA MƏXSUS ÇAP ƏSƏRLƏRİNİN VƏ DİGƏR MATERİALLARIN İTİRİLMƏSİ VƏ YA YARARSIZ VƏZİYYƏTƏ SALINMASINA GÖRƏ DÖVLƏT KİTABXANALARININ TƏLƏBLƏRİNƏ ƏSASƏN BORCUN ALINMASI

*26. Hiiqıqi və fiziki şəxslərdən tutulmuş və ya yararsız vəziyyətə salınmış kitabxana fonduna məxsus çap əsərlərinin və digər materialların (milli mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələr istisna olunmaqla) yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla qiymətinin 10 misli həcmində alınması haqqında dövlət kitabxanalarının tələbləri*

*İcra qeydi alınaq iiçiin aşağıdakılar təqdim olunur:*

***a)** çap əsərlərinin və ya digər materialın kitabxanadan alındığı və onun vaxtında qaytarılmadığını müəyyən edən sənəd;*

***b)** qaytarılmamış, yararsız vəziyyətə salınmış çap əsərinin və digər materialın başqa müvafiq çap əsərləri, materialları ilə əvəz edilməsi barədə, yaxud çap əsəri və digər materialın qaytarılması, dəyişdirilməsi mümkün olmadıqda, onların qiymətinin 10 misli həcmində borcun ödənilməsi barədə yazılı xəbərdarlığın surəti;*

***v)** çap əsərinin və ya digər materialın qaytarılınası, dəyişdirilməsi mümkün olmadıqda borcun ödənilməsi haqqında yazılı xəbərdarlığın təqdim edilməsi barədə poçt bildirişinin surəti;*

***q)** qaytarılmamış və yararsız vəziyyətə salınmış çap əsərinin və digər materialın qiyməti barəsində yeni qiymətləndirmə əmsalları nəzərə alınmaqla, sifarişçi tərəfindən təsdiqlənmiş kitabxananın inventar kitabından çıxarışı.*

# KİTABXANAYA BORCUNUZ VARSA...

Universitemizin əsas tədris bazalarından olan kitabxana hər bir oxucu üçün müqəddəs məbəddir. Bu hissi oxuculara aşılamaq üçün kitabxanamızın əməkdaşları əsas diqqəti onlar arasında aparılan tərbiyə işinə, kitabın universitə mülkiyyəti olması haqqında məsuliyyət hissi oyadılmasına yönəldirlər. Bunun üçün hər il sentyabr ayının 15-də, yəni yeni tədris ili başlayarkən ayrı-ayrı fakültələrdə tələbələrlə söhbət aparır, sonra qrupları kitabxana ilə tanış edir, fərdi söhbətlər vaxtı oxuculara kitabxana qaydaları, onların hüquq və vəzifələri haqqında geniş məlumat veririk. Tələbələrə izah edirik ki, Xəzər Universitəsi Akademik Kitabxanasının müxtəlif elm sahələrini əhatə edən zəngin kitab fondu formalaşmaqdadır. Bu cür xəzinəni qorumaq isə universitənin hər bir əməkdaşı və tələbəsi üçün maraqlı olmalıdır.

Kitabxana fondunun qorunması uğrunda mübarizənin əsas üsullarından istifadə edərək fəal oxucuların yığıncaqlarında səmərəli iş aparırıq. Kitab verilişi və qaytarılması zamanı xidmət (abonement) şöbəsində aparılan söhbət, kitabxanadan düzgün istifadə və onun yerinə yetirilməsinə tələbkarlıqla yanaşılmanın izah edilməsi oxucuların diqqətini kitabxana kitablarının qorunmasına yönəldir və əksər hallarda müsbət nəticələr verir.

Kitabxana mədəni-tərbiyə xarakterli müəssisə olduğundan kitaba şüurlu münasibət uğrunda tərbiyə işi osas silahdır.

Kitabların xarab olmasına və itməsinə qarşı mübarizədə təşkilati-texniki tədbirlər do görürük.



Kitabın itməsi ən çox onun vaxtında qaytarılmayıb “mənimsənilməsi“ ilə əlaqədardır. Kitabın gecikdirilməməsi üçün oxuculara vaxtlı-vaxtında xəbərdarlıq edirik.

Kitabı qaytarmaqdan imtina edilməsi onu mənimsəmək faktı kimi nəzərdə tutulur. Bundan sonra kitabxanaçı işi məhkəməyə vermyə qədər özündən asılı olan bütün ölçüləri götürməyə borcludur:

1.Müəyyən vaxtda qaytarılacaq kitab qaytarıImadıqda qəti tədbir olaraq həmin oxucu müəyyən vaxtadək kitab oxumaqdan ınəhrum edilir (kitab 3 həftədən artıq ləngidildikdə).
2.Kitab üzürsüz səbəbə görə ləngidildikdə kitabxanaçı oxucunu cəzalandırmalıdır (müəyyən müddətdə kitab almaqdan məhrum etmək).
3. Kitab itirildikdə və ya korlandıqda oxucu onu yenisi ilə əvəz etməli və ya qiymətinin 10 misli həcmində borcunu ödəməlidir.

Kitab əmlakmın qorunması üzrə təlimatda kitabı qaytarmaqdan və ya onu başqa kitabla əvəz etməkdən boyun qaçırdıqda oxucunun məsuliyyət daşıması, eləcə də kitabxanadan kitabın qəsdən oğurlanmasında və ya korlanmasında müqəssir olanlara qarşı cinayət məsuliyyəti müəyyən edilmişdir.

***Cəmilə ƏLİYEVA,***
*Xəzər Universitəsi*
*Akademik Kitabxanasının*
*əməkdaşı*